"Niyə Teymuru qoymursan dəniz sahilinə getsin?"

"Boz kardinal"ın "kardinallıq" "azarı"... Yaxud Siz kimsiniz, R. Mehdiyev?

Hidayət Orucov

əvvəli ötən saylarımızda

R.Mehdiyevin Şimal-Qərb bölgələrimizdəki "fəaliyyətinə" burda son qoymaq olardı, lakin... Bu bölgədə aparılan milli siyasətimizin üstünlükləri, həyata keçirilən ardıcıl böyük tədbirlər, xüsusilə milli azlıqların hədsiz məmnunluğu barədə ölkə mətbuatında da informasiyalar, yazılar çap olunurdu. Bu işdə o vaxtlar "Azərbaycan" qəzetinin bölgə müxbiri, istedadlı jurnalist (indi Elmlər Akademiyasının Arxeologiya və Antropologiya şöbəsinin müdiri, elmlər doktoru, professor) Qafar Cəbiyevin xidmətləri xüsusilə vurğulanmalıdır. Qafar "inqiloylar gürcü deyil" - həqiqətini də əməkdaşı olduğu qəzetdə vurğulamışdı və bundan sonra Mehdiyevin qəzetin baş redaktoru Əmir Mustafayevə qəzəbli telefon zəngi gəlmişdi: "İnqiloylar gürcü deyil, bəs kimdirlər?". İnqiloylar Gürcüstan nazirinin üzünə dedilər: "Biz gürcü deyilik, inqiloyuq!". Mehdiyev soruşur: "Gürcü deyillər, bəs kimdirlər?".

Artıq bu yazıda dediyim kimi - o vaxtlar müxtəlif ölkələrdən olan həmkarlarım mənim bir sözümü tez-tez sitat gətirirdilər: "Milli siyasətlə məşğul olanların "işi" minatəmizləyənlərin işinə oxşayır: bir azca diqqətsizlik hər şeyi məhv edər". Ona görə belə faciələrdən qorunmaq üçün ikiqat-üçqat işləmək lazım gəlirdi və min şükürlər olsun Tanrıya - on dörd ildə bir dəfə də olsun mənfi insidentə yol verilmədi!

Mən Mehdiyevlə bir yerdə işləməyə başlayandan hiss edirdim - o, Kamran Bağırovu sevmir, hətta iki-üç dəfə onun haqqında mənfi "epizodlar" söylədi! Ancaq həqiqəti neçə ildən, yaşlaşandan, yaddaşı korlanandan sonra açdı. Demə, Kamran Bağırov həmin fevral günlərində Xankəndidən qayıdandan sonra onu kəskin və çox haqlı tənqid edib: "Siz hara baxırsınız?"

Bütün tarixi ədəbiyyatda, hətta Strabonda da Qafqaz Albaniyasının 26 xalqı içində gürcülərin də olması barədə bir söz yoxdur. Bəlkə Mehdiyev (Strabon eramızın ilk əsrində yaşayıb, tarixi həqiqətləri qələmə alıb) Strabondan əvvəl yaşayıb, Zaqatalada, Balakəndə... gürcü görüb?

Dövlət müşaviri xidmətinin azsaylı əməkdaşları ilə işimiz başdan aşsa da, tez-tez bu xidmətlə əlaqəsi olmayan məsələlərlə də məşğul olurduq. Çünki Aparatda o işləri bizim xidmət kimi heç bir qurum o səviyyədə edə bilməzdi. Dövlət çevrilişi cəhdlərinin və onun yüksək peşəkar səviyyədə qarşısının alınmasını əks etdirən "Qəsd" kitabının hazırlanmasını mənə Prezident özü tapşırmışdı. Milli Elmlər Akademiyasında möhtəşəm təqdimatı keçirildi (ancaq açıq hiss olunurdu ki, bu möhtəşəmlik də onun xoşuna gəlmirdi). Kitabı hazırladıq, nəşr olundu, ciddi müsbət əks-səda verdi. Toplunun hazırlanmasında bir an da iştirak etməyən Mehdiyevin də adını mənim adımla bir yerdə "buraxılışa məsul" kimi kitabın titul vərəqəsinə yazdıq. Bir məsələ məni çox narahat edirdi: o illərdə ölkə Prezidenti səviyyəsində tez-tez müşavirələr, müxtəlif ölkə miqyaslı, beynəlxalq tədbirlər keçirilirdi və demək olar hamısında Ulu Öndər tarixi çıxış edirdi, düşünürdüm: bu dəyərli çıxışları sonra kim toplayacaq? Kim nəşr edəcək? Gələcək nəsillərə çatdıracaq? Hamısını əhatə edə biləcəklərmi? İndicə dediyim kimi - öz sahəmlə bağlı işim başımdan aşsa da, çoxcildliyin plan layihəsini hazırlayıb Mehdiyevə təqdim etdim. Adını da müəyyənləşdirdim: "Müstəqilliyimiz əbədidir". Mehdiyev layihəni kabinetinin pəncərəsinin qabağındakı jurnal stolunun üstünə qoydu. Üç-dörd həftə orda qaldı, heç əl vurmadı da. Mən soruşanda isə sözü bu oldu:

- Götürün, özünüz necə bilirsiniz edin.

Götürdüm, hazırlamağa başladım, çox gərgin iş getdi. Titul vərəqəsində buraxılışa məsul kimi onun adını da yazdıq: dörd cildi çap olundu. Növbəti beşinci cildə çatanda, gördüm mənim adım yoxdu. "Azərnəşr"in direktoru Azər Mustafazadədən soruşdum. Dedi - "Ramiz Mehdiyev göstəriş verdi ki, onun adını çıxar!"

- Bəs o vaxt mənə niyə demədiniz?- soruşdum.

Susdu. (Bu barədə biraz sonra).

Mehdiyevdən soruşdum. Nə desə yaxşıdır:

- Elçibəyin kitabını çap edən Heydər Əliyevin kitabını çap edə bilməz.

- Mən qürur duyuram ki, Elçibəy hakimiyyətə gələndən öncə, açıq-aşkar müxalifətdə olanda onun 2 kitabını nəşr etmişəm. Qorbaçovun, ya Vəzirovun bir cümləsini də nəşr etməmişəm. Buna görə də qürur duyuram!- dedim.

Çoxcildliyin sonrakı azı iki-üç kitabı da mənim tərtibim idi, lakin adım yazılmadı, sonrakı-mənim tərtibim olmayan cildlərdə isə qüsurlar açıq-aşkar gözə dəyirdi. İndi "Azərnəşr"in baş redaktoru, peşəkar naşir Əlövsət Ağalarovun rəhbərliyi ilə çoxcildiyin təkrar nəşrinə başlanılıb. Əminəm ki, ilk nəşrin sonrakı cildlərindəki qüsurlar təkrar olunmayacaq.

Çoxcildlikdən öncə öz təşəbbüsümlə "Azərbaycan milli dövlətçilik quruculuğu yolunda" toplusunu nəşr etdim. Mehdiyev kitabın hazırlanmasında öz adını görməyəndə özündən çıxdı. Mən güman eləmirdim ki, o biri nəşrlər kimi əlamətdar olmayan bu kitabda da öz adını görməyə belə həvəslidir. Kitabın siqnal nüsxələri nəşr edilmişdi, sökdürüldü, titul vərəqinə adı yazıldı... Elmlər Akademiyasına üzv seçiləndə isə...bu kitablar haqqında ona məlumat verməyimi xahiş etdi.

Kitabın içindən, nəşrindən xəbərin olmaya, təkid edəsən ki, titul vərəqində adın yazılsın? Yaxud kitabı hazırlayan adamın adını titul vərəqindən çıxarasan?

Bu yazının başlanğıcında demişəm: "Prezident Aparatında da bir "Ramiz Ənvəroviç" deyib ağzından beşi tökülənlər, cümləsinin mübtədası da, xəbəri də "Ramiz müəllim" olanlar vardı". Lakin həqiqəti heç nəyə dəyişməyən, sözünü qətiyyətlə bildirən vəzifəli şəxslər də yox deyilmiş!

Mehdiyev bir gün səhər-səhər mənə zəng çaldı:

- Siz təcrübəli, həmişə dövlətçilik mövqeyində dayanan... - digər yüksək təşbehlər dedi.

Düşündüm: Nə olub? Nə əcəb birdənbirə?

Demə, iclas eləyəcək, istəyir mən çıxış edib onun deyəcəklərini dəstəkləyim.

Dövlət müşavirlərinin və şöbə müdirlərinin iştirak etdiyi iclas günortadan sonra başladı, gündəlikdə 2 "məsələ" vardı. Birincisi, Prezidentin işlər müdirinin müavini, öz işinin yüksək səviyyəli peşəkarı Oqtay Şahbazova aid idi: Zağulbada dövlət pansionatının içinə - kottejlərin, binaların həyətinə avtomobil ilə daxil olmaq qadağası! Mehdiyev Oqtay Şahbazovdan yuxarı tonda soruşur: "Niyə Teymuru qoymursan yaşadığı binaya, dəniz sahilinə avtomobil ilə getsin?"

Oqtay Şahbazov deyir: "Qayda belədir, qayda hamı üçündür".

Mehdiyev: - "Bəs onda İlhamı niyə qoyursan avtomobil ilə gedir?"

O. Şahbazov: "Sizin oğlunuz İlham Əliyevdir?" (İlham Əliyev onda Neft Şirkətinin birinci vitse-prezidenti idi).

...Mehdiyev dediklərini danırdı. O. Şahbazov əsaslı faktlarla, dəqiqliklə sübut etdi ki, o məhz belə deyib.

İkinci "məsələ" Aparatın Vətəndaşlarla və sənədlərlə iş şöbəsinin müdiri, vəzifəsini ardıcıl və dəqiqliklə yerinə yetirən Süleyman İsmayılova aid idi. S.İsmayılov Mehdiyev tərəfindən onun ixtisas dərəcəsinin Prezidentə qərəzlə, qəsdən aşağı kateqoriyada təqdim olunması üçün müraciət etmişdi və qərəzli yanaşmanı əsaslı faktlarla onun üzünə dedi.

...Mən çıxışımda bu məsələlərin heç birinin adını çəkmədən ciddi problemlərdən danışdım. Hamı başa düşdü - çıxışımdakı eyhamların hamısı Mehdiyevə aiddir. Bundan sonra əlbəttə, o mənə qarşı yeni gedişlər axtarmalıydı və axtarırdı.

İclasdan dərhal sonra O.Şahbazova da, S.İsmayılova da telefon açıb dedim: "Sən qalibsən! Amma bu "İclas"ın gündəliyi ordan bayıra çıxmasın, ayıbdır, bizə gülərlər, siz onun səviyyəsinə enməyin".

Azər Mustafazadənin susqunluğuna qayıdıram: Dövlət Mətbuat Komitəsində sədr müavini idi. Ulu Öndər istefaya göndərilməndən sonra ona qarşı təşkil edilən təqib kampaniyasına qarşı mətbuatda açıq-aşkar sərt çıxışlarım xoşuna gəlmirdi.

Bir neçə dəfə sərt söhbətlərimiz oldu. Sakitləşmədi. Dövlət Komitəsinin sədri, yaxın ətraflarındakı iki-üç təsadüfi adamın iştirakı ilə tələ qurub kollegiyada heç kəsin gözləmədiyi halda məni "Gənclik" nəşriyyatının baş redaktoru vəzifəsindən azad olunmağım məsələsini qoydular (Azər kollegiya üzvü olsa da, özü əvvəlcədən düşünülmüş şəkildə kollegiyada iştirak etmirdi), kollegiya üzvləri şoka düşdülər, hətta Dövlət Komitəsinin yeni rəhbərinin təqdimatı ilə təyin olunmuş yeni üzvlər də bir fikri vurğuladılar: "Hidayət Orucov kimi naşiri, ziyalını yetişdirməyə uzun illər lazım olur...". Sədrin də, Azərin də niyyətləri keçmədi. Sonra Azər Moskvanın təşəbbüsü ilə Mərkəzi Komitənin Mədəniyyət şöbəsinin müdiri oldu, bir-iki dəfə telefonla istədi mənimlə "yuxarıdan" danışsın, sakitcə ona layiq münasibət bildirdim. Susdu. Sonra Şəki Rayon Partiya Komitəsinin birinci katibi idi. İşi bacarmadı, tezcə azad olundu. Bir müddət işsiz qaldı. Sonra özünün mənə dediyi kimi, Viktor Polyaniçkonun dəstəyi ilə "Azərnəşr"ə direktor təyin olundu. Bizim heç olmasa bir binada işləməyimizi, onun kabinetinin üstündə mənim kabinetimin olmağını, işə gələndə, gedəndə, tənəffüsdən qayıdanda üz-üzə gəlməyimizi nəzərə almadan yenə əvvəlki qərəzindən əl çəkmirdi, məni "unutmurdu". Hər şeydən əli üzüləndə yuxarı dairələrdə "Azərnəşr"və "Gənclik" nəşriyyatının birləşdirilməsi məsələsini qaldırdı və ona elə gəldi ki, heç bir əsası olmayan bu layihənin (o illərdə "Gənclik" respublikanın ən yüksək səviyyəli nəşriyyatı idi!) məqsədinə çatmağa çox yaxındır. Əsas məqsədi özünün fəaliyyət dairəsini genişləndirmək və məni tutduğum baş redaktor vəzifəsindən uzaqlaşdırmaq idi. "Gəncliy"in bütün peşəkar kollektivi ayağa qalxdı, Dövlət Komitəsinin sədri gəlib kollektivin iclasında iştirak etdi, Azərin "layihəsini" əvvəlcədən birmənalı dəstəkləsə də, gördü ki, tamamilə əsassızdır.

Bir məqamı da deməliyəm: "Gənclik" "Azərnəşr"in binasının üçüncü mərtəbəsində yerləşirdi və bu mərtəbədə "Azərnəşr"in ikicə otağı vardı. Bir gün eşitdim - dəhlizdə kimsə qışqırır. Kimin səsidir belə, kabinetimə açılan iki qapını yarıb keçir? Ayağa qalxdım, üz-üzə qapıları açdım: Gördüm Azər mənim kabinetimlə üzbəüz otaqda olan işçilərini dəhlizdə başına toplayıb uca səslə Ulu Öndərimiz haqqında nalayiq ifadələr işlədir. Yerimdəcə dondum. Onun bu üzdəniraq "monoloqu" Ulu Öndərimizin Ali Sovetin sessiyasındakı tarixi çıxışının - ona qarşı hazırlanmış həyasız kampaniyanı ifşa etdiyinin ertəsi günü idi.

- Azər Mustafazadə, Polyaniçkoya yarınmaq istəyirsənsə, get Mərkəzi Komitənin ikinci mərtəbəsinin dəhlizində qışqır ki, eşitsin. Bura yeri deyil, səsin ona çatmayacaq, qoy işimizi görək - dedim.

(Eşitmişdim ki, Polyaniçko Mərkəzi Komitənin ikinci mərtəbəsində oturur).

Azər o sözləri mənə eşitdirmək üçün öz mərtəbəsində deyil, mənim qapımda qışqırırdı...

Əlbəttə, öz kollektivi üzvlərinin yanında

dediyim bu sözləri heç vaxt unutmayacaqdı! Bunu əvvəlcədən bilirdim. Amma mən siyasi vəzifəyə keçəndən sonra onun xislətini xatırlamadım, düşündüm - yaşda məndən çox böyükdür, özü səhvlərini başa düşər.

Onu da deyim ki, "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin "Azərnəşr"də nəşr olunmasında heç maraqlı deyildi. Əvvəlcə çox təəccübləndim. Ona dedim: "Hara, hansı nəşriyyata təklif etsək, məmnuniyyətlə, dönə-dönə təşəkkürlə nəşr edəcəklər. Ancaq söhbət Prezidentin çoxcildliyindən gedirsə, mütləq dövlətin baş nəşriyyatında nəşr olunmalıdır!".

Ona elə gəlirdi ki, Heydər Əliyev hakimiyyəti uzunömürlü deyil.

Bəli, mənim adımı çoxcildlikdən çıxarandan sonra R.Mehdiyevlə A.Mustafazadə canbir "qardaş"oldular. A.Mustafazadə "qardaşı" tərəfindən mükafatlandırılmalı idi. Amma necə? "Variant" tapıldı... Sonra Mehdiyevin məruzəsi ilə A.Mustafazadəyə Prezident təqaüdü verildi. Səhv etmirəmsə - bu, yüksək olmayan dövlət idarələrində işləyən qulluqçulara verilən ilk (bəlkə həm də son, yeganə) Prezident təqaüdü idi.

Belə-belə işlər, Mehdiyev... Təqiblər, təqiblər... Ardı-arası kəsilmədən, hətta mənim qəbuluma kimlər gəlir-hansı nazirlər, icra hakimiyyəti başçıları? Bizim xidmətlə Humanitar siyasət şöbəsi eyni mərtəbədə idik. O şöbənin yüksək məsul işçilərindən birinə xüsusi tapşırıq verilmişdi: mənim qəbuluma gələnləri qeydə alıb dərhal məlumat versin. Bir dəfə... bir nazir mənə zəng çalıb xahiş etdi ki, görüşmək istəyir. Gəldi, beş-on dəqiqə keçməmiş Mehdiyevin də telefonu səsləndi:

- O ora nəyə gəlib?

Demədim o müraciət edib.

- Mən dəvət etmişəm! - dedim, baxılası məsələ var. Mən naziri və ya digər hökumət üzvünü qəbul edəndə kimdənsə icazə almalı deyiləm - deyib dəstəyi yerinə qoydum.

Nazir mərtəbədə onu adını çəkdiyim şöbədə kimin gördüyünü və ona təftişçi nəzərlə baxdığını söylədi. Belə hallar tez-tez olurmuş. Sonralar bir sıra nazirlər özləri bu barədə mənə deyirdilər. Nazirlər onun "iradlarına" qəti münasibət bildirirmişlər: "Biz yalnız iş üçün görüşürük, dəyərli müzakirələr aparırıq".

Prezident Aparatından şəhər və rayon icra hakimiyyətləri başçılarına "göstəriş gedirdi: Hidayət Orucovu eşitməyin". Bu barədə icra hakimiyyəti başçıları təəccüblə mənə bildirirdilər. Onu da birmənalı deməliyəm: mənim sözümə, tövsiyəmə, tapşırığıma hörmət etməyən bircə nəfər də olsun nazirə, icra hakimiyyəti başçısına rast gəlmədim. Onlar görürdülər ki, mənim iradlarım da, tapşırıqlarım da, tövsiyələrim də yalnız işin xeyrinədi. Ancaq... hansı rayonun icra hakimiyyətinin başçısının "yola salınması" və yenisini təqdim etmək problemli idisə, o təqdimata yalnız məni "seçirdilər", bu, Ulu Öndərimizin hakimiyyətə qayıdışından sonra onun tapşırığı ilə həyata keçirilirdi. Bu ənənəni dəyişməyə çəkinirdilər, qorxurdular-təqdimata başqasını göndərsələr, insident baş verə bilər...

Öz yalanlarının, dezinformasiyalarının keçmədiyini görəndə də qərəzindən, məkrindən yenə əl çəkmirdi. Nüfuzlu nazirlərə deyirdi ki, məndən Prezidentə şikayət etsinlər. İki böyük sahələrin nüfuzlu nazirləri bu barədə mənə özləri təəccüblə söylədilər. Onların ikisinin də cavabı eyni olmuşdu: "Nə deyək? Onun dövlətçiliyimizin möhkəmlənməsində səmərəli xidmətlərindən, təmizliyindən başqa heç nəyini görməmişik!".

Mənə qarşı hədsiz, bitməz qərəzini həmişə özünün üzünə açıq demişəm, heç nədən çəkinməmişəm. Hətta bir dəfə - 1998-ci ilin may ayında Aparatın bir şöbə müdirinin yanında mənə qarşı təxribatlarını kəskinliyi ilə "yadına saldım". Və...4 ay nə ona müraciət etdim, nə zəng çaldım, nə də görüşdük. Belə rahat idi, çox rahat idi, həm də işin səmərəsi - daha yüksək! Dörd ay mənim müraciətimi gözlədi, sonra naəlac qalıb özü zəng çalıb dəvət etdi, özünü elə aparırdı ki... sanki heç nə olmayıb.

...Bu sətirlərin əsas başlığı - "Boz kardinal"ın "kardinallıq" "azarı" - görüntü üçün seçilməyib. Mehdiyevin görünən və görünməyən fəaliyyətinin əsas mahiyyəti məhz "kardinallıq" "azarı"nın göstəriciləri idi. 1998-ci ilə qayıdıram, Ulu Öndərimizin səhhətində problemlər yaranan vaxta. Mən onun kabinetində olanda kənardan kimisə qəbul edəndə, ya telefonla danışanda mütləq xatırladırdı: "Prezident xəstədir - başım qarışıqdır...". Və ya: "Prezident xəstə idi, - başım qarışıq idi...". Sanki ölkənin bütün problemlərinin həlli onun üstündəydi. Ulu Öndər ölkənin idarəetmə mexanizmlərini elə qurmuşdu - hərə öz işiylə məşğul idi: Aparat da, Hökumət də, Parlament də...

Hələ bunlar üzdə görünənlər idi. Arxada isə...

Politoloq Eldar Namazovun bu yaxınlarda müsahibəsini oxudum: Mehdiyev Prezident xəstələnən kimi Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədri Vladimir Rusayloya zəng çalır. Əsas sual: Prezident xəstələnib: bundan sonra nə etməliyik?

O illərdə Rusiyanın bu qurumunun rəhbəri ilə məsləhətləşməklə Ermənistanın eyni adlı qurumu ilə məsləhətləşməyin fərqi yox idi.

Eldar o vaxtlar proseslərin içindəydi - Prezidentin köməkçisiydi.

Mənə qarşı təqibləri, haqsızlıqları həmişə ürək ağrısı ilə izləyən bir müdrik el ağsaqqalı akademikin sualı da yadımdan çıxmır: "Bəlkə öz yerindən qorxur ki, sən ora keçərsən?".

Dedim: "Ağsaqqal, mənim həyatım boyu kimsənin yerində gözüm olmayıb. Kimisə yıxıb yerinə keçməyi alçaqlıq saymışam. Həmişə vəzifədə olmuşam: İşləmişəm, yalnız işləmişəm. Başqa heç nə barədə düşünməmişəm, günlərin birində çağırıb deyiblər: "Məsləhətdir-indi keçib orda işləyəsən" keçmişəm, orda da işləmişəm... Sonra yeni təyinat...".

Dövlət müşaviri vəzifəsində də - işləmək, yalnız işləmək! Ulu Öndərimizin və möhtərəm Prezidentimizin etimadlarını doğrultmaq! İndi əlimi ürəyimin üstünə qoyub səmimiyyətlə, məmnunluqla deyə bilərəm: o illərdə bizim xidmətdə çox möhtəşəm işlər görülürdü. Əvvəla, Ulu Öndərimizin alternativsiz milli siyasət konsepsiyası dəqiqliklə həyata keçirilirdi. Ölkədə ideal milli birlik bərqərar oldu, doxsanıncı illərin əvvəllərində addımbaşı peyda olan milli-dini separatçılara yer qalmadı, qaçqınlarımızın çoxsaylı ağır problemləri həll olundu, xaricdə yaşayan soydaşlarımız azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdilər, ölkəmizi, başımızı uca edən, bölgəmizdən uzaqlardakı dövlətlərə yaxşı nümunə olan böyük həqiqətlər dünyaya yayıldı. Dövlət müşaviri ölkə daxilində ardıcıl fəaliyyətlə yanaşı, möhtəşəm həqiqətlərimizin uzaq Qərbdən başlamış (Vaşinqton, Nyu-York, Rio de Janeiro...) Yaxın Şərqədək (Qüds, Eylat, Vifliem) səsləndirirdi. Ümumiyyətlə, o illərdə iyirmidən çox xarici ölkədə keçirilən, qırxdan çox yüksək səviyyəli beynəlxalq, regional sessiyalarda, konfranslarda ölkəmizin həqiqətlərini səsləndirmişəm. Ən mötəbər yüksək tədbirlərin hər birinin mövzusuna aid yanaşmalarla yanaşı, həmişə erməni təcavüzünün fəsadları ön plana çəkilirdi. BMT Baş Assambleyasının sessiyasındakı çıxışımda haqlı ittihamlarıma axıradək tab gətirə bilməyən Ermənistanın xarici işlər naziri Vartan Voskanyan sessiya salonunu tərk etdi. Bu, həm müxtəlif ölkələrin xarici işlər nazirlərinin, həm də daimi nümayəndələrinin diqqətindən yayınmadı. Toplantı başa çatan kimi iki xarici işlər naziri mənə yaxınlaşıb eyni sözləri dedilər: "Voskanyan bizim təəccübümüzdən, baxışlarımızdakı suallardan yayınıb aradan çıxdı".

Söhbət Baş Assambleyanın sessiyasından gedir, Mehdiyev! Ulu Öndərimizdən, möhtərəm Prezidentimizdən, bir-iki xarici işlər nazirimizdən başqa kim o kürsüyə çıxa bilmişdi?

BMT-nin Cenevrə bölməsində, ATƏT-in Avropa Şurasının, Sivilizasiyalar Alyansının ən yüksək səviyyəli tədbirində ölkəmizi dəfələrlə təqdim etmək xarici işlər nazirindən başqa kimə nəsib olub?

Aparatın rəhbərinin daim təqibləri, sonsuz qərəzi, məkri, dövlət işinə mane olmaq üçün nəyə desən əl atması şəraitində bu miqyasda səmərəli fəaliyyət göstərə bilmək indi mənim özümə əfsanə kimi gəlir. Məni qoruyan-fəaliyyətimə imkanlar yaradan göydə Allahım idi, yerdə Ulu Öndərim Heydər Əliyevlə möhtərəm Prezidentim İlham Əliyev!

2006-cı ildə Dövlət Müşaviri işlədiyim 14 il ərzində ilk dəfə olaraq məzuniyyətə çıxıb ailəmlə birlikdə Quzey Qafqaza istirahətə getdim. Köməkçim əlbəttə, hər gün mənə ardıcıl məlumatlar verirdi. Bir gün bildirdi ki, cənab Prezidentin sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri işdən azad olundu. Öncə dediyim kimi - Dövlət Komitəsi yaranana qədər din mənim xidmətimin sahəsinə aid idi, yeni dövlət qurumu yaranan gündən Mehdiyevin növbəti "kəşfi" ilə mənim sahəmdən götürüb Humanitar siyasət şöbəsinə veriblərmiş, özü də mənə bildirmədən. Bu barədə iki həftə sonra məlumatım oldu. Mənim Dövlət Komitəsi ilə heç bir əlaqəm olmadan dini mərkəzlərlə ardıcıl işlədim, çünki bunsuz mümkün deyildi: Milli siyasət harda, din də orda olmalıdır! Dövlət Komitəsində isə profilə uyğun məqsədyönlü işdən başqa nə desən vardı. Sonra, 2005-ci ildə Aparatın yeni strukturu yaradılanda naəlac qalıb bu sahəni yenə mənim xidmətimə qaytardılar.

Yenə o günə qayıdıram: köməkçiyə dedim ki, Dövlət Komitəsi sədrinin müavini mənə zəng çalsın. Zəng çaldı, lazımi göstərişləri verdim.

Məzuniyyətim başa çatan kimi işə çıxdım. Başım çox qarışıq idi, hər halda 1 ay işdə olmamağım öz sözünü deyirdi! İki gün sonra Mehdiyevə zəng çaldım. Nə vaxt gəldiyimi soruşanda cavabımdan təəccübləndi:

- Bəs iki gündür gəlibsiniz, bir dəfə telefonu qaldırıb demirsiniz ki, burdayam.

Düşündüm: "Görəsən, nə var yenə belə "mehribanlaşıb?"

Görüşdük. Varmış! Mənə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri getməyimi təklif etdi. Neçə il qabaq Milli Ensiklopediyaya baş redaktor getmək təklifini xatırladım. Onun 10 ildən çox Aparatın rəhbəri stolunda dəyişməmiş, həll edilməmiş "problemlərindən" biri (bəlkə birincisi) mənim ordan ayrılmağım olduğu bir anlığa keçdi gözlərimin önündən. Etiraz etmədim, amma onun təkidinə görə yox! Artıq milli siyasət sahəsində tamamilə möhkəm sabitliyin bərqərar olunduğu üçün! Prezident məni elə həmin gün qəbul etdi, səmimi, mənalı söhbətimiz oldu, dəyərli tövsiyələr verdi. Ertəsi günü isə Dövlət Komitəsinin kollektivinə təqdim olundum.

Hökumət üzvlərini kollektivə təqdimatını adətən Baş nazir edir. Mənim təqdimatıma isə Mehdiyev gəldi. Beləcə, işə başladım. Xəbər İrəvana bəlkə də ölkəmizin bəzi bölgələrindən tez çatmışdı. Erməni mətbuatı bayram içində idi: "Hidayət Orucov getdi!" başlığı mətbuat səhifələrinin manşetlərindən neçə gün düşmədi. Dövlət Müşaviri xidməti ləğv olundu, fəaliyyəti sektor şəklində İctimai-siyasi şöbəyə aid edildi. Xeyli qabağa gedib deyim ki, xidmət bərpa olunanda erməni mətbuatı yenə təşviş içində idi... "Hidayət Orucovdan 7 il sonra yenə Dövlət Müşaviri xidməti bərpa olundu".

Bu başlıqları oxuyandan sonra yadıma düşdü. Həqiqətən 7 il idi. Ancaq bu suala qəti cavabın şübhəsi, alternativi yoxdur: "Görəsən mənim öncə dövlət müşaviri postundan, sonra Dövlət Komitəsinin sədri vəzifəsindən getməyimə erməni millətçiləri daha çox sevinir, şadyanalıq edirdilər, yoxsa Mehdiyev?". (Cavab birmənalıdır: "Əlbəttə, Mehdiyev!").

Dövlət Komitəsinin yarıtmaz fəaliyyəti barədə elə bu ilin əvvəllərində açıqlama verməyə məcbur oldum. Mənim xarakterim belədir ki, hansı vəzifəyə təyin olmuşamsa, o vəzifədə məndən öncə işləyən haqqında bir kəlmə də olsun tənqidi söz deməmişəm, ancaq Dövlət Komitəsinin məndən qabaqkı sədrinin mətbuatda ağlabatmaz yalanlarına cavab verməmək mümkün deyildi. İndi isə o barədə bircə cümlə deyirəm: mən Dövlət Komitəsinə gedənəcən inanmazdım ki, ölkəmizdə elə antidövlət komitəsi ola bilərmiş. Dövlət Komitəsi məndən qabaq diqqətini yalnız Qafqaz Müsəlmanları İdarəsi ilə mübarizəyə yönəltmişdi. Digər dini mərkəzlər, icmalar isə tamamilə unudulmuşdu. Mehdiyevin ağlına gəlməzdi ki, mən gördüyüm işləri görə bilərəm - özü də onun ardıcıl davam edən qərəzi, təqibi şəraitində. Dövlət Komitəsinin özündə də danışırdılar ki, məni ora bir illiyə, uzaqbaşı iki illiyə - Prezident seçkilərinədək göndəriblər. Mənsə heç nəyə fikir vermədən gərgin işə başladım: yeni vəzifənin üçüncü həftəsi dini mərkəzlərin rəhbərlərinin, din xadimlərinin, ilahiyyatçı alimlərin iştirakı ilə geniş toplantı keçirdik. Bu tədbir bütün iştirakçılara çox maraqlıydı, hamı təşəkkürünü bildirirdi. Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədri, görkəmli ilahiyyatçı-alim, akademik Vasim Məmmədəliyevin çıxışında ilk cümləsi yadımdadır: "Şükür, axır ki, biz də bir yerə yığışdıq, çox vacib problemləri müzakirə edirik". Doğurdan da o toplantı gələcək işlərimiz üçün etibarlı, start idi. Tədbir otellərin birinin möhtəşəm salonunda keçirilirdi.

Kabinetə qayıdan kimi Mehdiyevin telefon zəngi gəldi:

- O nə iclasdır keçiribsiniz?

- Çox vacib tədbir idi - dedim - bu, başlanğıcdır.

davamı növbəti sayımızda